

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 244 (20.898)

*27 dekabr 2013-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Ramazan Abdulatipovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

* * *

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Ramazan Abdulatipov birgə nahar etmişlər.

* * *

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bilgəh-Novxanı-Sumqayıt avtomobil yolunda inşaat işlərinin gedişi ilə tanış olmuş, Zabrat-Pirşağı avtomobil yolunun açılışında iştirak etmişdir.

Prezident İlham Əliyev əvvəlcə Bilgəh-Novxanı-Sumqayıt avtomobil yolunda aparılan tikinti işlərinin gedişi ilə tanış oldu.

Sonra Prezident İlham Əliyev yenidən qurulması başa çatmış Zabrat-Pirşağı avtomobil yolunun açılışında iştirak etdi.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

# Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsinin 15 illiyinə həsr olunmuş tədbirlər keçirilir



*Muxtar respublika Təhsil Nazirliyində Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsinin 15 illiyi münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə təhsil naziri Piri Nağıyev açaraq məruzə edib.*

Məruzədə bildirilib ki, Konstitusiya dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir və həmin dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını təsbit edir, vətəndaşların hüquq və azadlıqlarının qorunmasına zəmanət verir. Ən yüksək hüquqi qüvvəyə malik bu sənəd dövlətin mahiyyətini açıqlayır, qanunvericilik, icra və məhkəmə orqanlarının funksiyalarını əks etdirir, cəmiyyət, şəxsiyyət və dövlət arasındakı qarşılıqlı münasibətləri müəyyənləşdirir. Konstitusiyanın hüquqi, sosial, siyasi, tərbiyəvi funksiyaları vardır. Hüquqi funksiya bütün hüquq sisteminə xas olan tənzimləmə funksiyasını yerinə yetirir. Sosial funksiya təhsil, elm kimi sosial sistemin yaşamasına təsir göstərir. Siyasi funksiya siyasi qüvvələrin hakimiyyəti əldə etməsinin sivil formasını təsbit edir. Tərbiyəvi funksiya isə hər bir insana Konstitusiya qanunlarına, insan və vətəndaş hüquq və azadlıqlarına və dövlətə hörmət ruhu aşılayır.

15 il bundan öncə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul olunmasının tarixi zərurət kimi qiymətləndirən Piri Nağıyev qeyd edib ki, Naxçıvanın muxtariyyətinin əsasları hazırda qüvvədə olan Moskva və Qars beynəlxalq müqavilələri ilə qoyulub. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilib. Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb. 1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü Konstitusiyası qəbul edilib. Naxçıvan Muxtar Respublikasının hazırkı Konstitusiyasının əsasını Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyası təşkil edir.

Sonra Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Hüseyn Məmmədyarovun, Şərur Rayon Təhsil Şöbəsinin müdiri Yaqub Tağıyevin, Babək Rayon Təhsil Şöbəsinin müdiri Kamil Kazımovun çıxışları olub. Çıxışlarda qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının öyrədilməsinə təhsil işçiləri tərəfindən xüsusi diqqət yetirilir. Bu il Naxçıvan Muxtar Respublikası ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsinin 15 illiyinə həsr olunmuş hüquq olimpiadası da bu tədbirlərin davamı olub.

*Dünən Naxçıvan Tibb Kollecində də Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsinin 15 illiyi münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə kollecin direktoru İlhamə Mustafayeva açıb.*



Kollecin müəllimi İsmayıl Gülməmmədov "Ulu öndər Heydər Əliyev və Konstitusiyamız" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, müasir Azərbaycan dövlətinin qurulma prosesi, onun uğurlu inkişaf konsepsiyası kimi ölkəmizdə həyata keçirilən demokratik islahatlar xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin böyük xidmətləri nəticəsində müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikasında xalqın dövlətçilik məqsədlərinə və milli-mənəvi dəyərlərinə uyğun, demokratik inkişafa və beynəlxalq hüquqi məkana inteqrasiya prosesinə şərait yaradan hüquq və qanunvericilik sistemləri qurulub. Nəticədə, Azərbaycan Respublikası insan hüquqları ilə bağlı qəbul edilmiş əksər beynəlxalq müqavilələrə qoşulub, bu sahədə mövcud beynəlxalq standartlara uyğun öz milli qanunvericiliyini yaradıb. 1995-ci ilin əvvəllərində dahi rəhbər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya komissiyası yaradılıb, komissiya tərəfindən ümumbəşəri ideya və dəyərləri özündə əks etdirən yeni Konstitusiya layihəsi hazırlanıb. Yeni Konstitusiya 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Konstitusiyası əsasında hazırlanmış Naxçıvan Muxtar Respublikasının Konstitusiyası isə 1998-ci il aprelin 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul edilib və həmin il dekabr ayının 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunub.

Məktəbin tarix müəllimi Rəna Vəliyeva "Qədim Naxçıvanın keçmiş tarixi və indiki inkişafı" mövzusunda çıxış edib.

Tədbirə kollecin direktoru İlhamə Mustafayeva yekun vurub.

# Sahibkarlığın inkişafında mühüm rol oynayan amillərdən biri – güzəştli kreditlər

### *Cari ildə də belə kreditlərin verilməsi davam etdirilib*

Muxtar respublikamızda sahibkarlığın inkişaf etdirilməsində dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi, sahibkarların işgüzar əlaqələrinin inkişafı, müxtəlif növ xidmətlərin və maliyyə dəstəyinin göstərilməsi kimi kompleks islahatların aparılması mühüm rol oynayır. Bu məqsədlə yaradılmış Sahibkarlığa Kömək Fondunun fəaliyyəti diqqətçəkicidir. Qurum cari ilin ötən dövrü ərzində də üzərinə düşən vəzifəni yerinə yetirməyə çalışmışdır. Bəhs olunan dövrdə fond tərəfindən 78 layihənin maliyyələşdirilməsinə 7 milyon 419 min 700 manat həcmində güzəştli kredit verilmişdir. Həmin vəsaitdən kənd təsərrüfatı yönümlü 48 layihənin maliyyələşdirilməsinə 1 milyon 810 min 200 manat, sənayeyönümlü 27 layihənin maliyyələşdirilməsinə 5 milyon 483 min 500 manat, xidmət sahəsinin inkişafı yönümlü 3 layihənin maliyyələşdirilməsinə 126 min manat yönəldilmişdir.

Bütün bunlar isə dövlət maliyyə dəstəyi ilə kənd yerlərində kiçik müəssisələrin yaradılmasına, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına, daxili tələbatın yerli istehsal hesabına daha dolğun və etibarlı ödənilməsinə şərait yaratmışdır.

Bəhs olunan dövrdə kənd təsərrüfatı sahəsində bağçılıq və üzümçülük üzrə 20 layihənin maliyyələşdirilməsinə 447 min 200 manat, quşçuluq üzrə 18 layihənin maliyyələşdirilməsinə 1 milyon 129 min 500 manat, tərəvəz istixanalarının yaradılması məqsədilə 3 layihənin maliyyələşdirilməsinə 85 min 500 manat, limonçuluq təsərrüfatının yaradılmasına 4 layihə üzrə 66 min manat kredit verilmişdir.

Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi əhalinin məşğulluq səviyyəsini də artırır. Belə ki, Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına bu ilin 11 ayı ərzində yaradılmış 52 layihə üzrə 739 yeni iş yeri açılmış, yaradılması davam etdirilən 26 istehsal və xidmət sahəsi üzrə isə 162 yeni iş yerinin açılması nəzərdə tutulmuşdur.

Həyata keçirilən tədbirlər yerli istehsal məhsullarının həcminin genişləndirilməsinə, çeşidinin artırılmasına, həmçinin ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalına imkan verir. Bunun nəticəsidir ki, muxtar respublikada fəaliyyət göstərən istehsal müəssisələrində 115 növdə, 459 çeşiddə ərzaq, 231 növdə, 529 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 346 növdə, 988 çeşiddə məhsul istehsal olunur. 106 növdə ərzaq, 226 növdə qeyri-ərzaq olmaqla, cəmi 332 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Əldə olunmuş nailiyyətlər muxtar respublikada sahibkarlıq üçün əlverişli şərait yarandığını, iqtisadiyyatın bu sektorunda çalışanlara dövlət tərəfindən hər cür qayğı göstərildiyini əyani nümayiş etdirir.

# Naxçıvanda beynəlxalq standartlara uyğun laboratoriyalar qurulur

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən aldığımız məlumata görə, bu ilin 11 ayı ərzində ixracyönümlü müəssisələrdə müasir standartlara uyğun şəraitin yaradılması və istehsal prosesinin qabaqcıl texnologiyalar əsasında təşkili məqsədilə muxtar respublikaya idxal olunan 46 avadanlıq sertifikatlaşdırılıb, regional standartların tətbiqi məqsədilə 472 ədəd dövlətlərarası, 4415 ədəd beynəlxalq standartlara uyğun sertifikat verilib. Muxtar respublikada istehsal olunan mebellərin keyfiyyətinin nəzarətdə saxlanılması ilə əlaqədar istehsal olunan mebellərə 33, xammal və köməkçi materiallara 77 uyğunluq sertifikatı verilib.

Keyfiyyətli un istehsal etmək üçün dəyirmanlarda texnoloji proseslərə nəzarət olunması, laboratoriya analizlərinin aparılması və keyfiyyətli un istehsalı ilə əlaqədar 2 un dəyirmanının sınaq laboratoriyası təkmilləşdirilərək akkreditasiya olunub. 11 dəyirmanda istehsal olunan 29 halda un məhsulunun laboratoriya analizlərinə əsasən, standartın tələblərinə uyğun olduğu və dəmir mineral tozu ilə zənginləşdirildiyi müəyyən edilib. Haliyədə bütün çörək istehsalı müəssisələrində zənginləşdirilmiş undan istifadə olunur.

Məlumatda o da bildirilib ki, müasir laboratoriyaların akkreditasiyası üzrə 23-ü texniki səlahiyyətli, 11-i isə texniki səlahiyyətli və müstəqil olmaqla 34 laboratoriyada akkreditasiya işləri aparılıb, bu laboratoriyalardan 10-nun akkreditasiya attestatının qüvvədəolma müddəti bir il artırılıb, 24-nə isə yeni attestat verilib. İki laboratoriya isə standartın tələblərinə uyğun şəraitə malik olmadığından və avadanlıqların müvafiq texniki sənədləri olmadığından akkreditasiya olunmayıb. Akkreditasiya olunmuş laboratoriyaların 14-ü muxtar respublikada istehsal və idxal olunan yeyinti və kənd təsərrüfatı, 5-i alkoqollu içkilər, 7-si tikinti materialları, 1-i karbon qazı və quru buz məhsullarının, 1-i tütün, 1-i elektrik mallarının, 1-i təbii yanar qaz məhsullarının, 1-i qeyri-üzvi duzların dərman preparatları və yeyinti məhsulları, 1-i trikotaj məmulatlarının, 2-si isə rabitə vasitələri və qurğularının sınaqlarının aparılması və keyfiyyət göstəricilərinin qiymətləndirilməsi məqsədilə ixtisaslaşdırılıb.

**Xəbərlər şöbəsi**



# Sədərəkdə tərəqqinin üfüqləri daha da genişlənir

***Ulu öndərin hifz etdiyi torpaq***

Son vaxtlar kimin yolu Sədərəyə düşürsə, qəribə bir mənzərə ilə qarşılaşır: bir tərəfdə abad, yaraşıqlı tikintilər, park və xiyabanlar, səliqəli məhəllələr, digər tərəfdə torpağı qazılmış, sonradan üstü müvəqqəti örtülmüş küçə və döngələr. Kələ-kötür yollardan keçmək də çətinləşib. Amma bu mənzərədən heç kim narahat olmur, gileylənmir, alternativ küçələrdən istifadə edilir. Xüsusilə rayon sakinləri Sədərəkdə nə iş görüldüyünü bilir və bütün bunları "müvəqqəti çətinlik" adlandırır, hətta yeri gəldikdə həyət-bacanın qarşısında çalışan inşaatçı və quraşdırıcılara öz kömək əllərini uzadırlar. Bir sözlə, hamı nikbindir. Çünki Sədərəyə yeni su və kanalizasiya xətləri çəkilir! Bunun isə nə demək olduğunu dərk etmək üçün mütəxəssis olmaq gərək deyil. Adi məktəbli də bilir ki, bu quruculuq tədbiri xeyirxah bir məqsədə xidmət edir.

Bu gün muxtar respublikamızın hər yerində olduğu kimi, Sədərək rayonunda da böyük tikinti-quruculuq işləri aparılır. Rayonda uşaqlara qayğı tükənməzdir. Keçən il Sədərək kəndində 60 yerlik yeni uşaq bağçası istifadəyə verilmişdir. Bu il oktyabrın 8-də isə rayon mərkəzi Heydərabad qəsəbəsində zirzəmi ilə birlikdə 3 mərtəbəli, 144 yerlik uşaq bağçasının açılışı olmuşdur. Həmin gün Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəməri də istifadəyə verilmişdir.

Sədərəkdə əsaslı təmir olunan və yenidən qurulan daha bir obyekt isə 1 nömrəli tam orta məktəbin binasıdır. Əvvəllər məktəb heç bir şəraiti olmayan köhnə binada yerləşirdi. Artıq bura müasir görkəmə salınır, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün hər cür şərait yaradılır.

Rayonda tikinti-quruculuq işləri bunlarla məhdudlaşmır. Yuxarıda qeyd etdiyimiz kimi, "Sədərək rayonunun içməli su və kanalizasiya sisteminin yenidən qurulması" layihəsi də sürətlə icra olunur.

Rayonda Araz çayından qidalanan Şir arxının üzərində sərfiyyatı saatda 3 min kubmetr olan yeni nasos stansiyasının tikintisində işlər yekunlaşmaq üzrədir. Nasos stansiyası istifadəyə verildikdən sonra sərhəd bölgəsinin 1000 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil ediləcək.

Bu ilin mart ayından etibarən Sədərək rayonu ərazisində sahilbərkitmə işlərinə də başlanılmışdır. Hələlik, 7 min metrədək məsafədə daşla sahilbərkitmə işləri aparılmışdır. 2100 metr məsafədən artıq ərazidə isə yeni torpaq bənd tikilmişdir. Hazırda daşla sahilbərkitmə işləri davam etdirilir. Sahilbərkitmə işlərinin aparılması Sədərək rayonunda yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına, torpaqların yuyulmasının və şoranlaşmasının qarşısının alınmasına xidmət edir.

Bəli, regionların sosial-iqtisadi inkişafı prosesində Sədərək öncüllük mövqeyini inamla qoruyub saxlamaqdadır. Bu mövqeyi təmin edən əsas şərt Azərbaycan Prezidentinin və Ali Məclis Sədrinin bu sərhəd bölgəsinə davamlı və yetərli qayğısıdır. Bu qayğının məntiqi nəticəsidir ki, Sədərək son illər, sözün həqiqi mənasında, əsl intibah dövrünü yaşayır. Uğurlu illər bir-birini əvəzlədikcə bu tarixi yurdun siması sürətlə dəyişir, müasir görkəm alır, gözəlləşir. Son 18 ildə böyük inkişaf yolu keçən Sədərək rayonu sakinlərinin həyat tərzi, dolanışıq səviyyəsi müqayisəedilməz dərəcədə yaxşılaşmışdır. Uğurla həyata keçirilən sosial layihələr, yeni şəraitə uyğun olaraq yaradıcılıqla qurulan infrastruktur adamları doğma yurda daha möhkəm tellərlə bağlayır. Artıq neçə ildir ki, bölgəyə təbii qaz verilir, elektrik enerjisi ilə təminatdakı fasilələr tamamilə aradan qaldırılmışdır.

Bölgədə müasir tələblərə cavab verən yol infrastrukturu yaradılır. Sahibkarlığın inkişafı yolunda yandırılan yaşıl işıq, sahibkarlara göstərilən qayğı və diqqət iş adamlarına qol-qanad verir, yeni istehsal sahələrinin yaradılması ilə nəticələnir, yüzlərlə rayon sakini üçün daimi və sərfəli iş yerləri açılır. Təkcə bu il 50-dən artıq sədərəkli daimi işlə təmin edilmişdir.

Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Yusif Seyidovun dediklərindən:

– Ulu öndər Heydər Əliyev dühası Sədərəyi erməni işğalından hifz etmişdir. Siz də görürsünüz ki, bu bölgədə, bu torpaqda nələr yaradılmışdır. Rayonumuzun mərkəzi olan Heydərabad qəsəbəsi indi muxtar respublikamızın ən gözəl qəsəbələrindən birinə çevrilmişdir. Kəndlərimiz öz simasını əsaslı surətdə dəyişmiş, daha abad və yaraşıqlı olmuşdur.

***Artım, yüksəliş***

Son illər sürətli sosial-iqtisadi inkişaf yolunda uğurlu nailiyyətləri ilə muxtar respublikanın qabaqcıl rayonları sırasına çıxmış Sədərək rayonunda cari ildə də qarşıda duran vəzifələr layiqincə yerinə yetirilmişdir. Bunu statistik rəqəmlər də təsdiqləyir.

Sənaye məhsulu istehsalı ötən illə müqayisədə xeyli artaraq 4 milyon 15,4 min manata, kənd təsərrüfatı məhsulları istehsalı 10 milyon 633,8 min manata yüksəlmişdir. Əmtəə dövriyyəsinin həcmi 25 milyon 923,4 min manat olmuşdur. Pullu xidmətlərin ümumi həcmi 3 milyon 360,3 min manata çatmışdır. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyaların həcmi 21 milyon 674,8 min manat təşkil etmişdir.

Rayon üzrə orta aylıq əməkhaqqının artım dinamikası da qalmaqdadır. Hazırda 384,7 manat təşkil edən orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövründən çoxdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu Sədərək Rayon Şöbəsi tərəfindən 2022 nəfər əmək pensiyaçısına 2 milyon 365 min 389 manat pensiya ödənilmişdir.

Sözügedən dövrdə 1941-1945-ci illər müharibəsi və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş 4 nəfər sədərəkli "NAZ-Lifan" markalı minik avtomobili ilə təmin olunmuşdur.

Rabitə xidmətinin müasir tələblər səviyyəsində inkişafı istiqamətində də tədbirlər ardıcıl olaraq davam etdirilir. 13 mənzilə telefon çəkilmiş, 200 nəfərdən artıq abunəçi internet xəttinə qoşulmuşdur.

***Qış qapını alsa da...***

Sədərəkdə qışa hazırlıq tədbirləri vaxtında həyata keçirildiyindən bu gün rayon sakinləri heç bir çətinliklə üzləşmirlər. Hələ avqust ayında rayon İcra Hakimiyyətində keçirilən müşavirədə payız-qış mövsümünə hazırlıqla əlaqədar idarə, müəssisə və təşkilatlar qarşısında konkret vəzifələr qoyulmuşdur: istiliklə təmin edilməyən obyekt və ya bina olmamalıdır!

Təbii ki, ilk növbədə, qaz, elektrik enerjisi, su təchizatı, yolların təmiri ilə məşğul olan təşkilatların üzərinə böyük məsuliyyət düşür.

Qış mövsümündə əhalinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə elektrik verilişi xətlərində əsaslı və cari təmir işləri görülmüş, yeni elektrik sayğacları və transformatorlar quraşdırılmış, zədəli sayğaclar və istismar müddəti bitmiş transformatorlar yenisi ilə əvəz edilmişdir. Rayon ərazisindəki keyfiyyətsiz dayaqlar dəyişdirilmiş, elektrik yarımstansiyalarında avadanlıqlar əsaslı və cari təmir olunmuşdur. Qış mövsümünə hazırlıqla əlaqədar rayon Qaz İstismarı İdarəsi tərəfindən də bir sıra işlər görülmüşdür.

Rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələri də qış mövsümünə tam hazır vəziyyətə gətirilmişdir. İçməli su problemi də yoxdur. Çünki 115 subartezian quyusu əhalinin xidmətindədir.

***Aqrar sahə: il uğurla yola salınır***

Kənd təsərrüfatında işin səmərəli təşkili, dövlət tərəfindən məhsul istehsalçılarına göstərilən maliyyə və texniki dəstək, suvarma suyunun vaxtında verilməsi məhsul istehsalının artımına təkan vermişdir. Cari ilin əvvəlində 284 nəfər buğda istehsalçısına 68 min 680 manat yardım verilmiş, 280 ton pulsuz mineral gübrə paylanmışdır. Bundan əlavə, 210 nəfər torpaq mülkiyyətçisinə yaz əkinlərinin aparılması üçün 202 min manat güzəştli kredit verilmişdir.

Həyata keçirilən bu kimi tədbirlər nəticəsində 2013-cü ildə bitkiçiliyin əsasını təşkil edən taxıl istehsalında nailiyyətlər qazanılmışdır. Belə ki, 2 min 128 hektar zəminin taxılı biçilmiş, keçən ildəkindən 22 ton çox, yəni 6142 ton məhsul götürülmüşdür. 1 dekabr 2013-cü il tarixə 1205 hektar sahədə dən üçün payızlıq səpin aparılmışdır ki, bunun da 940 hektarı buğda, 265 hektarı isə arpadır.

Rayonda kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 3574 hektar olmuşdur. Müxtəlif bitkiçilik sahələri üzrə çəkilən zəhmət hədər getməmişdir. 95 hektar kartof əkini sahəsindən 1795,5 ton kartof, 412 hektar tərəvəz əkini sahəsindən 4861,6 ton tərəvəz, 185 hektar bostan əkini sahəsindən 2121,9 ton bostan məhsulları, barverən meyvə bağlarından 586,4 ton meyvə, üzüm bağlarından 1288 ton üzüm tədarük olunmuşdur.

**Bu qısa yazıda rayon həyatının bəzi sahələri haqqında konkret faktlar və rəqəmlər əsasında fikir söyləməyə çalışdıq. Ümumi mülahizələrin hamısını bir cümlə ilə ifadə edən fikir isə belədir: aparılan bütün tədbirlər rayonda iqtisadiyyatın daha da inkişaf etdirilməsinə, yeni iş yerlərinin yaradılmasına, insanların maddi-rifah halının yaxşılaşdırılmasına xidmət edir. Sədərəyin bugünkü inkişaf və tərəqqisi də bununla bağlıdır. Qədim yurd yerinin sabahı daha işıqlı, daha nurlu olacaqdır. Çünki həyata keçirilən əsaslı tədbirlər, nəzərdə tutulan yeni planlar, müəyyənləşdirilmiş vəzifələr rayonu yeni uğurlara doğru aparır. Sədərəkdə adamların yeganə devizi belədir: düşmənə gözdağı olan doğma yurdumuzu cənnətə döndərək!**

**...Daha bir önəmli cəhət ondan ibarətdir ki, muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərindən Sədərəyə uzanan geniş, abad magistral yol müasirliyi ilə diqqət çəkir. Bu təkcə Sədərəyə gedəndə zaman məsafəsini azaltmır, eyni zamanda adama bir könül rahatlığı və dinclik gətirir. Çünki bu yolun o biri başında Sədərəyə üz tutanları düşmənin bir addımlığında qərar tutan məğrur bir rayonun rahatlığa, firavan yaşayışa haqqı çatan insanların alqışları, xeyir-duaları qarşılayır.**

✍ **Cəfər ƏLİYEV**

## Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi 2013-cü ildə fəaliyyətini genişləndirmişdir

***Muxtar respublikamızda peşə təhsilinin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir, bu sahədə fəaliyyət göstərən tədris müəssisələrinin maddi-texniki bazası gücləndirilir. Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində də bacarıqlı mütəxəssislərin hazırlanmasına ciddi diqqət yetirilir. 2012-ci ildə məktəb üçün hərtərəfli tədris şəraitinə və maddi-texniki təchizata malik olan kompleksin istifadəyə verilməsi bu istiqamətdə görülən tədbirlərin miqyasını daha da genişləndirmişdir.***

Bu gün Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində təhsil alan müdavimlərin bilik və praktik vərdişlərinin artırılması daim diqqət mərkəzində saxlanılır. Çünki təlimlərin səmərəli təşkili və müdavimlərin yüksək səviyyədə hazırlanması gələcəkdə baş verə biləcək yol-nəqliyyat hadisələrinin ilkin mərhələdə qarşısının alınması və avtonəqliyyat vasitələrindən düzgün istifadə baxımından əhəmiyyətlidir. Hazırda məktəbdə yürüyüş təlimlərinin keçirilməsi üçün 8 ədəd avtomobil, minik və yük avtomobillərinin bazasında yığılmış 2 ədəd avtotrenajor vardır. Məktəbdə yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrinin idarəetmə məsələləri üzrə təcrübi təlimlər keçirilir, kənd təsərrüfatı texnikalarından istifadə üzrə mütəxəssislər hazırlanır. Təlim kursu başa çatdıqdan sonra müdavimlər bilik, bacarıq və vərdişlərinin, eləcə də sürücülük hazırlıqlarının səviyyəsini müəyyən etmək üçün imtahan verirlər.

2013-cü ildə məktəb öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmuş, bu müddətdə 110 qrupda təhsilini başa vuran 3276 müdavimə şəhadətnamə verilmişdir. Məktəbi bitirən müdavimlərdən 240-ı qadınlar, 360-ı isə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən göndərilən gənclər olmuşdur.

Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi peşəkar sürücülərin və ixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyətini 2014-cü ildə də davam etdirəcəkdir.

**"Şərq qapısı"**

## Qafqaz Universitetinin əməkdaşlarından ibarət bir qrup heyət Naxçıvan Özəl Universitetində olmuşdur

Qafqaz Universitetinin əməkdaşlarından ibarət bir qrup heyət ENOTES TEMPUS proqramı çərçivəsində Naxçıvan Özəl Universitetində yaradılmış ECDL Mərkəzi ilə tanışlıq məqsədilə Naxçıvan Özəl Universitetində olmuşdur. Universitetin rektoru, professor İsmayıl Əliyev çıxış edərək ölkəmizdə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada elmin, təhsilin inkişafına göstərilən yüksək qayğıdan danışmış, Naxçıvan Özəl Universitetinin keçdiyi inkişaf yolu, eləcə də genişlənməkdə olan beynəlxalq əlaqələri barədə məlumat vermişdir.

Qonaqlar adından Qafqaz Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Sənnur Əliyev çıxış edərək universitetlərarası əlaqələrin inkişafında tərəfdaşlığın əhəmiyyətindən, bu istiqamətdə qarşıda duran vəzifələrdən danışmışdır. Tədbirdə tələbə mübadiləsi və Naxçıvan Özəl Universiteti müəllimlərinin Qafqaz Universitetində ixtisasartırma kurslarında iştirakı məsələləri haqqında fikir mübadiləsi aparılmışdır.

Sonra qonaqlar Naxçıvan Özəl Universitetinin strukturunu, eləcə də beynəlxalq əlaqələrini əks etdirən təqdimata baxmış, universitet ərazisini gəzərək ali məktəb üçün inşa edilən ayrı-ayrı korpuslarla tanış olmuşlar.

**Nuray ƏSGƏROVA**

## Sığorta ödənişlərinin verilməsi davam etdirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumatda bildirilir ki, baş verən təsadüfi bədbəxt hadisələrə görə sığortalı vətəndaşlara dəymiş zərərlərin hesablanaraq onlara ödənişlər şəklində yardımlar verilməsi davam etdirilir. Belə ki, cari ilin dekabr ayı ərzində mülki məsuliyyətin icbari sığortası üzrə yol-nəqliyyat hadisəsi nəticəsində avtomobilləri zərər çəkdiklərinə görə Əli Paşayevə 850, Məhərrəm Gülməmmədova 1930, Tapdıq Vəliyevə 450, Rəşad Abdullayevə 750, Zülfü Cəfərova 500, Mənsur Nəcəfova 795, Kapital Bankın Şahbuz Rayon Şöbəsinə 2712 manat, xidmət zamanı əlillik dərəcəsi aldıqlarına görə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Heydərəli Məhərrəmov və Əyyub Hüseynovun hər birinə 6600, "Aysel" gözəllik salonunun sahibi Rəvanə Məmmədovaya isə daşınmaz əmlakın icbari sığortası üzrə 530 manat sığorta ödənişi verilib.

Muxtar respublikada sığortalı əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən belə tədbirlər gələcəkdə də davam etdiriləcək.

**Xəbərlər şöbəsi**



*Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərinin etibarlı qorunmasından asılıdır. Sərhədlər isə o zaman etibarlı qorunur ki, onu qoruyan ordu çevik və peşəkar insanlardan ibarətdir. Cənubi Qafqazın əsas ölkəsi olan Azərbaycanın sərhədlərinin qorunması hər zaman aktual olmuşdur. Sovetlər Birliyinin dağılmasından sonra Azərbaycan, xüsusilə Naxçıvan Muxtar Respublikası şimal sərhədlərindən gələn hücumlara cavab verməli oldu – vaxtilə torpaqlarını güzəştə getdiyi bir ölkənin güzəştsiz ittihamlarına qarşı savaşa başlamış oldu.*

# Ordum varsa...

Tarix sübut edir ki, Azərbaycanın, həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müxtəlif zamanlarda hərbi müdaxilələrə məruz qalması, əsasən, ordumuzun yeni formalaşdığı dövrlərə təsadüf etmişdir. Elə ötən əsrin 90-cı illərinin əvvəllərində erməni hərbi birləşmələrinin muxtar respublikanın şimal sərhədlərinə mütəmadi hücumlarının əsas hədəfi də bu qədim türk yurdunun işğal edilməsi məqsədini daşıyırdı. Tarixdən bəllidir ki, Naxçıvan torpaqlarına olan iddialar çoxdan var idi. Mənfur ermənilər həm ötən əsrin əvvəllərində, həm II Dünya müharibəsi dövründə, həm də sovetlər zamanında bu iddialarından əl çəkməmişlər. "Böyük Ermənistan" yaratmağın əsas cinahlarından biri də qədim Naxçıvan torpaqlarını ələ keçirməklə Türkiyə Respublikası ilə Uzaq Şərqə doğru uzanan türk torpaqları arasında on bir kilometrlik əlaqənin kəsilməsini təmin etmək idi. Hətta "böyük Ermənistan" qurulmasa belə, bu on bir kilometrlik məsafə Şərqə və Qərbə istənilən təsiri etmək üçün ermənilərin əlində ən gözəl vasitə olacaqdı. Təbii ki, ermənilər böyük Atatürkün Naxçıvan haqqında düşüncə və ideyalarını, Moskva və Qars müqavilələrinin şərtlərinin hansı zərurətdən yarandığını unutmamışdılar. İllər keçəcək, ermənilər yaxın tarixdə yol verdikləri "səhvi" etiraf etməkdən də çəkinməyəcəkdilər: "...Əslində, Naxçıvan bizə Dağlıq Qarabağdan daha çox lazım idi. Doğrudur, Qarabağın müstəqilliyi bizim üçün vacibdir, lakin Naxçıvanı almaq bizim bütün planlarımızın və arzularımızın yerinə yetirilməsi üçün gözəl imkanlar açacaqdı. Yəqin ki, bizim gənclər "bu tarixi ədalətsizliyi" bərpa etmək üçün ata-babalarının mübarizəsini davam etdirəcəklər".

Təxminən on-on beş il bundan əvvəl erməni mətbuatında dərc olunan bir yazıdan yadımda saxladığım bu fikirlər, düşünürəm ki, onlar üçün hər zaman aktual olub. Şükürlər olsun ki, ötən əsrin 90-cı illərində bu qədim yurdun mərd insanlarının cəsarəti ilə və ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində bu işğalın qarşısı alındı. Ancaq buna baxmayaraq, muxtar respublikanın böyük yaşayış məntəqələrindən biri olan Sədərək rayonu, Şərur rayonunun Şahbulaq, Yuxarı Yaycı, Havuş, Babək rayonunun Yuxarı Buzqov, Gərməçataq, Şahbuz rayonunun Şada və adını sadalamadığımız onlarla belə sərhəd kəndlərimiz mütəmadi olaraq mərmi yağışı altında yaşamağa məhkum idilər. Bu hadisələr həm də elə bir dövrdə baş verirdi ki, o zamankı respublika rəhbərliyi həm Naxçıvana kömək edə bilmirdi, həm də bu köməyin olunmasında faktiki olaraq maraqlı deyildi. Hətta keçmiş "hərbi rəhbərlərdən" biri Naxçıvanda ikinci cəbhənin açılması üçün bura "təşrif də buyurmuşdu". Bütün bu hadisələrin fonunda türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin Naxçıvanda həyata keçirdiyi ilk iş Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təmin olunması ilə bağlı müvafiq tədbirlərin görülməsi oldu. Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı mühüm qərarlar qəbul etmiş, mövcud hərbi dəstə və hissələrə vahid rəhbərliyi həyata keçirən müvafiq dövlət qurumu yaratmışdır. 1992-ci il sentyabrın 15-də isə Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş, bununla da, Azərbaycanın nizami ordusunun yaradılmasına başlanmışdır. Sonralar ümummilli liderimizin qayğısı ilə 705 saylı motoatıcı briqada 1995-ci ildə motoatıcı diviziyaya çevrilmiş, 1998-ci ildə isə 705 saylı diviziyanın bazasında ordu korpusu yaradılmışdır. Azərbaycan Ordusunun yaradıcısı, böyük dövlət xadimi Heydər Əliyev deyirdi: ***"Ordu qurmaq, silahlı qüvvələr yaratmaq böyük bir bina tikmək deyil. Ordu canlı orqanizmdir. Bu bir tərəfdən canlı orqanizm kimi yaşayır, ikinci tərəfdən isə canlı orqanizm kimi daim inkişaf etməlidir. Ona görə də biz Silahlı Qüvvələrimizi ilbəil təkmilləşdirməliyik, onun gücünü artırmalıyıq, peşəkarlıq səviyyəsini yüksəltməliyik, təchizatını ilbəil yaxşılaşdırmalıyıq".***

Bəli, Silahlı Qüvvələrimizi təkmilləşdirmək, ordunun döyüş və peşəkarlıq səviyyəsini artırmaq sahəsində ümummilli lider Heydər Əliyevin başladığı iş bu gün uğurla davam etdirilir. Ordunun döyüş qabiliyyəti daha da yüksəldilir, maddi-texniki bazası möhkəmləndirilir, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrin də maddi-texniki təminatı müasir tələblər nəzərə alınaraq möhkəmləndirilir, əsgərlər üçün məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Ötən 18 ildə muxtar respublikamızda 160-dan çox hərbi obyekt tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Ordumuzun Naxçıvan Muxtar Respublikasındakı birləşmə və hissələrinin döyüş qabiliyyəti və peşəkarlığı artırılmışdır.

Qeyd etdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasının müdafiəsinin etibarlı təminatı hər zaman diqqət mərkəzində saxlanılmışdır. Bu istiqamətdə atılan növbəti addım ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dekabrın 18-də Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Fərman imzalaması oldu. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılmışdır.



Əlahiddə Ümumqoşun Ordusu nədir və bu ordunun funksiyaları nədən ibarətdir? Əvvəlcə qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının məlum hadisələrdən sonra blokada vəziyyətinə salınması, Vətənimiz Azərbaycanla hava yolu istisna olmaqla birbaşa heç bir əlaqənin olmaması, istənilən vaxtda xarici hərbi müdaxilələrin olması ehtimalı, istər sülh, istərsə də müharibə vəziyyətində hər hansı bir təhlükə yarandığı zaman buradakı qüvvələrin koordinasiyasının həyata keçirilməsi, regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə döyüş apara bilən peşəkar orduya ehtiyacı zəruri edirdi. Əlahiddə Ümumqoşun Ordusunun yaradılması məhz bu baxımdan regionun təhlükəsizliyində mühüm rol oynayır.

Təbii ki, yeni ordunun funksiyaları da geniş olacaq. Əlahiddə Ümumqoşun Ordusunun yaradılmasında müsbət tərəflər bundan ibarətdir ki, burada şəxsi heyətin say çoxluğu, zabit və əsgərlərin peşəkarlığının artırılması, fiziki və döyüş hazırlığının daim diqqətdə saxlanılması, regionun relyefinə uyğun müvafiq döyüş əməliyyatlarının aparılması daha yüksək səviyyədə həyata keçiriləcək. Təbii ki, bütün bu işlərin həyata keçirilməsində də əsas məqsəd muxtar respublikanın müdafiəsinin daha etibarlı təminatına nail olunmasından ibarətdir. Bütün bunlarla bərabər, yeni ordunun yaradılmasını ordu quruculuğunda yeni mərhələ kimi də qəbul etmək olar.

**Nəzərə alaq ki, ordu quruculuğu həm də tükənməyən bir prosesdir. Yəni müasir dünyada istənilən ölkə öz ordusunda modernləşmə aparır, hərbi texnikalar yeniləri ilə əvəz olunur, peşəkarlığın yeni metodları tətbiq edilir və sairə. Bu baxımdan yanaşsaq, Əlahiddə Ümumqoşun Ordusunun yaradılması ilə muxtar respublikamızın müdafiəsinin gücləndirilməsində, təhlükəsizliyimizin yüksək səviyyədə qorunmasında yeni bir tarixi dövrə qədəm qoyulur. Gündən-günə dəyişən diyarımızın gözəlliyini və bu gözəlliyi bizə bəxş edən inkişafı qorumaq üçün bizə xüsusiqabiliyyətli, peşəkar ordu lazımdır. Bu Əlahiddə Ordu isə həm də qədim Naxçıvanın strateji mövqeyinin keşiyində duracaq, ərazi bütövlüyümüzə edilən əsassız iddialara əsaslı cavab verə biləcək. Bir kəlamda deyildiyi kimi: "Ordum varsa, yurdum var...".**

Səbuhi HƏSƏNOV

*Ziya Yusif Talıbzadənin adı mənbələrdə daha çox 1921-1922-ci illərdə Naxçıvan İnqilab Komitəsinin hərbi komissarı kimi səslənsə də, bəzi müəlliflər onun həm də xarici işlər komissarı kimi fəaliyyətindən bəhs edirlər.*

# Hərbi, yoxsa xarici işlər komissarı?

Qeyd edək ki, 1877-ci ildə Tiflisdə anadan olmuş Ziya Yusif Talıbzadə tanınmış ədib Abdulla Şaiqin qardaşıdır. O, ilk təhsilini Zaqafqaziya ruhani idarəsinin nəzdindəki Rüşdiyyə məktəbində almış, XIX əsrin sonlarında isə İranın Məşhəd şəhərində ali dini təhsilə yiyələnmişdir. Dini təhsilini Bağdadda tamamladıqdan sonra 1899-cu ildə Bakıya gələn Ziya Yusif türk, ərəb, fars və rus dillərini mükəmməl bilirdi.

Bakıda pedaqoji fəaliyyət göstərdiyi dövrdə müxtəlif əsərlər yazan və tərcüməçiliklə məşğul olan Ziya Yusif 1907-ci ildə Quranın Azərbaycan türkcəsində nəşr olunmuş üççildlik nüsxəsini Osmanlı sultanı II Əbdülhəmidə təqdim etmək üçün milyonçu Hacı Zeynalabdin Tağıyev tərəfindən Türkiyəyə göndərilmişdir. Sonralar siyasi həyatda aktiv şəkildə iştirak edən Ziya Yusif Türkiyədə hərbi təhsil almış, Balkan müharibəsində və Birinci Dünya müharibəsi illərində türk ordusunun tərkibində Qafqaz cəbhəsində vuruşmuşdur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında fəal iştirak edən Ziya Yusif bir müddət Osmanlı dövləti nümayəndə heyətinin başçısı kimi Təbrizdə fəaliyyət göstərmişdir.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra həbs edilən Ziya Yusif Nəriman Nərimanovun zəmanəti ilə həbsdən azad edilmiş, onun böyük təcrübəsi və hərbi bacarığı nəzərə alınaraq Naxçıvana hərbi komissar təyin edilmişdir. Məlum olduğu kimi, 1921-ci il yanvarın 21-də dövlət hakimiyyətinin ali orqanı



Naxçıvan Diyar İnqilab Komitəsi yaradılmışdı.1921-ci ilin fevral ayından Naxçıvan İnqilab Komitəsinin üzvü kimi fəaliyyətə başlayan Ziya Yusif general rütbəsində hərbi komissar kimi bu əzəli Azərbaycan torpağının daşnak Ermənistanından müdafiə edilməsində xüsusi şücaət göstərmişdir.

1921-ci ilin oktyabr ayında isə Naxçıvan SSR Xalq Komissarları Sovetinin tərkibində ərzaq, torpaq, maliyyə, səhiyyə, maarif, daxili işlər, hərbi işlər, fəhlə-kəndli müfəttişliyi xalq komissarlıqlarından başqa, xalq xarici işlər, rabitə, əmək, daxili ticarət, sosial təminat, ədliyyə, xarici ticarət, fövqəladə komissiya, xalq təsərrüfatı şurası və hərbi tribunal komissarlıqları da yaradılır. Bu dövrdə Axund Yusif Talıbzadənin adı həm də qısa müddət ərzində xarici işlər komissarı kimi də çəkilir. Bu barədə Həsən Həsənov "Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti" adlı kitabında yazır: "1920-ci ildə o, N.Nərimanovun xahişi ilə Azərbaycana gələrək Naxçıvanın xalq xarici işlər komissarı təyin olunmuşdur. Onun türk paşaları ilə yaxşı əlaqələri Naxçıvanın təhlükəsizliyinin möhkəmlətməyə xidmət etmişdir. Bir müddət sonra Axund Ziya Yusif Talıbzadə Naxçıvandan Türküstana köçərək Ənvər Paşa ilə birlikdə basmaçılar hərəkatına qoşulmuşdur".

Görünür, xarici işlər komissarlığı yaradılan zaman yaranmış gərgin vəziyyətdə Ziya Yusifin ərəb, türk, fars və rus dillərini yaxşı bilməsi, həm Qacarlar dövlətində, həm də Türkiyədə yaxşı əlaqələrə sahib olması onun bu vəzifəni icra etməsi üçün müəyyənedici amil olmuşdur. Lakin Naxçıvanı erməni millətçiləri və daşnaklar qarşısında ləyaqətlə müdafiə edən Ziya Yusif bolşeviklərin onlara qarşı liberal siyasəti ilə razılaşmamış, 1922-ci ilin axırlarında Bakıya gələrək Nəriman Nərimanovdan ölkə sərhədlərini tərk etmək icazəsi istəmiş və bu barədə rəsmi sənəd almışdır.

Bir müddət sonra Axund Ziya Yusif Talıbzadə Naxçıvandan Türküstana köçərək Ənvər Paşa ilə birlikdə basmaçılar hərəkatına qoşulmuşdur. Həmin dövrdə o, Z.V.Toğan ilə tanış olaraq sıx əlaqələr saxlamışdır. O, 1923-cü ilin avqustunda həlak olmuşdur.

Elnur KƏLBİZADƏ

# Distant təhsilin tarixinə dair

**Universitetə qəbula hazırlaşan abituriyentdən tutmuş ali təhsil müəssisəsində çalışan hər kəsi düşündürən suallardan biri də budur: distant təhsil nədir və təhsilin bu forması Azərbaycan təhsil məkanına necə tətbiq olunacaq? Əvvəlcə, distant təhsilin yeri və inkişaf tarixi haqqında məlumat vermək faydalı olar. Distant təhsillə bağlı internet üzərindən apardığım araşdırmalar 3 istiqaməti əhatə etmişdir: dünya təhsil məkanında distant təhsil; Azərbaycanda distant təhsilin yaranması və inkişaf tarixi, Naxçıvan Muxtar Respublikasında distant təhsilin tətbiqi imkanları.**

### *Dünya tarixində distant təhsil*

Distant təhsil iki subyekti birləşdirir – tələbə və onu dəstəkləyən təhsil müəssisəsini. Distant təhsil tarixən iki istiqamətdə həyata keçirilmişdir: məsafədən idarə olunmaqla birtərəfli və ikitərəfli. Birtərəfli təhsil öyrənənə təhsil verən tərəfindən məsafəli şəkildə mövzu ilə bağlı materialların çatdırılması yolu ilə həyata keçirilmişdir. İkitərəfli distant təhsil öyrədən və öyrənənin məsafəli şəkildə qarşılıqlı fikir mübadiləsi ilə həyata keçirilən təhsil forması kimi qəbul edilmişdir.

Distant təhsil formasının araşdırıcıları bu cür təhsilin ilkin rüşeymlərinin pedaqogika elminin atası sayılan Yan Komenskinin 1633-1638-ci illərdə qələmə aldığı “Böyük didaktika” əsərində əks olduğunu qəbul edirlər. Bu əsərdə təhsil verənlə təhsil alan arasındakı qarşılıqlı mübadilə geniş şərh olunsa da, distant təhsil konsepsiyasının 1728-ci ildən formalaşdığını qəbul edənlər də az deyil. Demək olar ki, həmin tarixdən bu günədək distant təhsil konsepsiyası olduğu kimi qalsa da, dəyişən yalnız kommunikasiya kanalları olmuşdur. Təxminən 300 il əvvəl Kaleb Filipsin distant təhsilin ilk təşkilatçısı kimi Boston qəzetində şəhərətrafı bölgələrdən tələbələrin sürətli yazı və mühasibatlıq kursuna dəvət elanı verməsi maraq doğurur. Onun tətbiq etdiyi metod vasitəsilə məşğələnin mövzuları həftədə bir dəfə poçtla tələbələrin yaşadıqları ünvanlara göndərilirdi.

Tezliklə bu üsulu öz fəaliyyətində tətbiq edən, Birləşmiş Krallıqda yaşayıb fəaliyyət göstərən İsaak Pitman 1840-1890-cı illərdə arzu edənlərə sürətli yazı metodikası dərslərini poçt xidmətindən istifadə yolu ilə təmənnasız göndərir və belə hesab edirdi ki, cəmiyyətin inkişafı onun bütün təbəqələrinin dini və siyasi görüşlərindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, ali təhsilə sərbəst çıxışındadır.

XIX əsrin 70-ci illərində Amerikada da distant təhsilin ilk rüşeymləri görünməyə başlamışdır. Belə ki, Anna Eliot Tiknor 1873-cü ildə qadınların poçt xidməti yolu ilə təhsil almaları üçün mexanizm hazırlayır və onu “Tiknor Cəmiyyəti” adlandırır. 1874-cü ildə bu üsul İllinois ştatında fəaliyyət göstərən universitet tərəfindən tələbələrə təklif edilir.

1892-ci ildə Amerikada “Poçt xidməti vasitəsi ilə təhsil”in atası hesab edilən Vilyam Reyni Harper Çikaqo Universitetində ilk dəfə olaraq distant təhsil mərkəzi açır. 1906-cı ildə bu təcrübəni Amerikanın Viskonsin Universiteti də tətbiq edir.

Bəs nə üçün bütün insanlara açıq olan distant təhsildən hamı yararlana bilmirdi? Bu suala XIX əsrin 90-cı illərində ICS (International Correspondence Schools) kompaniyası özünün keçirdiyi böyük sosial eksperimentdən sonra cavab tapa bilir. 1888-ci ildə Amerikada Distant Təhsil Mərkəzi fəaliyyətə başlayır. Bu mərkəzin fəaliyyət məqsədi amerikalı şaxtaçı immiqrantların karyera həvəsini reallaşdırmaqdan ibarət idi. Həmin distant təhsil kurslarına 18 il ərzində ICS vasitəsi ilə bir milyon tələbə qeydiyyata alınır. Nəzərə alsaq ki, həmin dövrdə ABŞ-da 75 milyon əhali yaşayırdı, bunu uğurlu fəaliyyət adlandırmaq olar. Lakin nəticələr ürəkaçan deyildi. Qeydiyyata alınan tələbələrin 83,4 faizi üçüncü kursun məzunu ola bilmir, məzunlar isə cəmi 2,6 faiz təşkil edirdi. ICS-in menecerlərindən biri öz kitabında bu haqda yazırdı: “Tələbələr proqramın çətinliyindən, aşağı motivasiya və praktik vərdişlərin olmamasından şikayətlənirdi”. Beləliklə, 100 il əvvəl aydın idi ki, distant təhsil yalnız yüksək motivasiyalı və mədəniyyətli insanların ala biləcəyi təhsil metodudur. Əgər motivasiya və yüksək mədəniyyət yoxdursa, pulsuz təhsil almağın da nəticəsi olmayacaqdır.

Qısa zaman ərzində distant təhsil imkanları Avstraliyaya qədər gedib çıxır. 1911-ci ildə Kvidlend Universitetində distant təhsil kursları fəaliyyətə başlayır. 1914-cü ildə məktəblərdən uzaqda yaşayan uşaqlara distant şəkildə ibtidai təhsil kursları verilir. Məktəblilər üçün nəzərdə tutulan bu proqram tezliklə Kanada və Yeni Zelandiyada da tətbiq edilir.

1917-ci il inqilabından sonra Rusiyada da distant təhsil forması yaranmağa başlayır. Sovet İttifaqında distant təhsilin yeni modeli işlənib hazırlanır ki, bu da konsultativ təhsil və ya qiyabi təhsil adlanır. Artıq XX əsrin 60-cı illərində SSRİ-də 11 qiyabi təhsil verən universitet fəaliyyət göstərirdi. İkinci Dünya müharibəsindən sonra SSRİ-də tətbiq olunan bu metod Mərkəzi və Şərqi Avropada da tətbiq olunmağa başlayır.

### *Distant təhsilin inkişafında yeni era*

XX əsrin 60-cı illərinin sonlarında Böyük Britaniyada distant təhsilin imkanları dövləti maraqlandırmağa başlayır və bu layihənin reallaşması üçün konkret addımlar atılır. Yeni tədris planları, tədris-metodik vəsaitlər və texnologiyalar hazırlanır. “Açıq Universitet” (Open University) layihəsini kraliça təsis etsə də, onun icrasına nəzarət baş nazir Harold Uilsona tapşırılır. Universitetin rektoru cəmiyyət palatasının spikeri təyin edilir. Açıq Universitet fəaliyyətinin ilk illərində Böyük Britaniya vətəndaşı olan və oxumaq istəyən hər kəsi tələbə kimi qəbul edir. Hətta bakalavr proqramına orta məktəbi bitirmək haqqında rəsmi sənədi olmayanlar da qəbul olunur. Dövlət universiteti olduğuna görə bura müraciət edənlərin sayı ilbeil artır. Dərslər distant şəkildə təşkil edilir, sənədləşmə işləri isə poçt vasitəsi ilə aparılırdı. Fəaliyyətinin ilk illərində yalnız öz vətəndaşlarını qəbul edən universitet sonrakı illərdə xarici vətəndaşların da qəbulunu həyata keçirməyə başlayır. Açıq Universitet bir çox ölkələrdə təhsilin qeyri-ənənəvi yolla həyata keçirilməsini təmin edən layihələr reallaşdırmağa təkan verir. Tələbə əldə etmək uğrunda aparılan mübarizə universitetlərin də bu sahədə inkişafına səbəb olur. Hazırda bu universitet distant təhsil həyata keçirən universitetlər arasında liderlik etməyə davam edir. Hər il bu universitetin qəbul planı 200 min tələbəni keçir.

Hazırda Avropada tanınmış distant təhsil mərkəzlərindən sayılan İspaniya Milli Distant Təhsil Universiteti də ölkə daxilində 60, ölkə xaricində 9 filialı birləşdirir.

1979-cu ildə Çində ilk dəfə olaraq distant təhsil verən milli televiziya və radio şəbəkəsi yaradılır. Bu hadisə distant təhsilin dünyanın bütün qitələrində fərqli dövlətlərin fərqli yanaşmasını kimi qəbul edilsə də, məqsəd bir idi – açıq təhsil imkanlarını genişləndirmək və bunu əhalinin bütün təbəqələri üçün əlçatan etmək. Beləliklə, XX əsrin ortalarında distant təhsilin imkanlarını televiziya, radio, poçt vasitəsilə həyata keçirilən audio və video materialları əhatə edir.

1989-cu ildə ABŞ-da ətrafında 1500 kollec və telekompaniyanı birləşdirən ictimai televiziya yaradılır (PBS TV). Bu telekanal tədris proqramlarını birləşdirən təhsil kanalı kimi fəaliyyət göstərir. Belə verilişlər içərisində elmin müxtəlif sahələri, biznes və idarəetmə üzrə maraqları əhatə edən proqramlar mühüm yer tutur.

Distant təhsil sahəsində tanınmış universitetlər içərisində Pensilvaniya Universitetini də misal göstərmək olar. Bu universitetin təcrübəsi UNESCO tərəfindən qəbul edilərək digər universitetlərə tövsiyə edilir. Distant təhsil formasının tətbiq edildiyi və bu sahədə böyük təcrübə toplamış ölkələrdən biri də Türkiyədir. Türkiyənin Anadolu Universitetində 1982-ci ildən məsafəli təhsil sistemi tətbiq olunur. Anadolu Universiteti hazırda 1,5 milyon tələbəyə distant təhsil verən dünyanın 3-cü meqauniversiteti hesab edilir.

XX əsrin sonlarında internetin təhsil sahəsində tətbiqi distant təhsilin inkişafına və yeni üfüqlərin açılmasına rəvac verir.

Beləliklə, XX əsrin 80-ci illərində kompüter texnologiyalarının cəmiyyət həyatına daxil olması ilə distant təhsil yeni forma və məzmun kəsb etməyə başlayır. Daha sonra internetin dünyanın bütün ölkələrini simsiz rabitə ilə birləşdirməsi distant təhsilin imkanlarını genişləndirməklə yanaşı, həm də asanlaşdırır. 1995-ci ildə Amerikanın Penn Dövlət Universitetində Jerrold Maddoxun internet üzərindən “İncəsənət haqqında şərh” adlı dərsi ilk dəfə olaraq onlayn yayımlanır. Bu haqda biz daha sonrakı araşdırmalarımızda məlumat verəcəyik. Eyni zamanda informasiya-kommunikasiya texnologiyalarının imkanlarının yaratdığı şəraitdən bəhrələnən ölkəmizdə distant təhsilin yaranması və inkişaf meyilləri də araşdırmamızın əsas istiqamətini əhatə edəcəkdir.

***Qloballaşma prosesləri və iqtisadi rəqabət ölkələr arasında texnoloji və elmi cəhətdən rəqabətə, eyni zamanda ixtisaslı işçi qüvvəsinə tələbata gətirib çıxarmışdır. Unutmayaq ki, təhsil sahəsi dövlət və özəl strukturların investisiya prioritetləri içərisində əsas yerlərdən birini tutur. Təcrübə göstərir ki, müasir dövrdə təhsil həm siyasi, həm də iqtisadi xarakter almaqla aparıcı dövlətlərin önəm verdiyi sahələrdəndir. Və biz qloballaşan dünyanın bir parçası kimi milli-mənəvi və bəşəri dəyərlərə, zəngin təcrübəyə əsaslanan təhsil strategiyasını millətin və dövlətin gələcəyinə, dünyadakı yerinin müəyyənləşməsinə hesablanmış şəkildə həyata keçirməliyik.***

*(ardı var)*

**Surə SEYİD**
***Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent***




# Yeni il bayramını təhlükəsiz keçirək

***Yeni ili muxtar respublikanın hər bir sakini gözəl əhval-ruhiyyə ilə qarşılamağa çalışır. Hər evdə küknarlar bəzədilir, küknarlar müxtəlif işıqlandırma vasitələri ilə al-əlvan rəngə bürünür. Mədəniyyət müəssisələrində və insanların bayram şənliyinə toplaşdığı yerlərdə Yeni il şənliklərinin və tədbirlərinin keçirilməsi münasibətilə müvafiq hazırlıq işləri aparılır. Bu vaxt əsas şərtlərdən biri şənliklərin təşkili və keçirilməsi zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasıdır. Adi bir ehtiyatsızlıq xoşagəlməz hadisəyə, yanğının baş verməsinə səbəb ola bilər.***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən muxtar respublika ərazisində Yeni il şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı yanğın təhlükəsizliyinin təmin olunması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə tərtib olunmuş tədbirlər planına uyğun olaraq, mədəniyyət, təhsil müəssisələrində, insanların bayram şənliyinə toplaşdığı yerlərdə yoxlama-nəzarət və maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Fövqəladə Hallar Nazirliyi Yeni il şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı yanğın hadisələrinin baş verməməsi və xoşagəlməz hadisələrlə üzləşməmək üçün vətəndaşlara aşağıda qeyd olunan yanğın təhlükəsizliyi qaydalarının tələblərinə riayət olunmasını tövsiyə edir.

Küknar ağacı möhkəm dayaq üzərində qurulmalı və ətrafında sərbəst hərəkət etmək üçün geniş məsafə saxlanılmalıdır. Küknar ağacı elektrik qurğularının quraşdırılması qaydalarına riayət olunmaqla işıqlandırılmalıdır. Elektrik cərəyanından istifadə edərkən tənzimləyicilər vasitəsilə 12 voltluq gərginlikli lampalardan istifadə olunmalı, elektrik naqilləri, işıqlandırma lampaları saz olmalı və etibarlı izolyasiya edilməlidir. İşıqlandırmada nasazlıq hiss olunduqda, yəni naqillər qızdıqda, lampalar yanıb-söndükdə, qığılcım olduqda təcili onu elektrik şəbəkəsindən ayırmaq lazımdır.

Yeni il şənliyi keçirilərkən şamlardan, qığılcımsaçanlardan istifadə etmək, şam ağacının oyuncaqlarla, eləcə də odadavamlı məhlula hopdurulmamış pambıqla bəzədilməsi və işıqlandırılması qadağandır. Yeni il şənlikləri keçirilərkən azyaşlı uşaqlara qızdırıcı və yaxud işıqlandırıcı cihazlardan istifadə edilməsi qadağan olunmalıdır. Yadda saxlamaq lazımdır ki, bir elektrik uzadıcısına bir neçə elektrik cihazı qoşularsa, həmin xətt artıq yüklənir və yanğın təhlükəsi yaranır. Bayram şənlikləri keçirilən otaqların elektrik xətlərinin izolyasiyası saz vəziyyətdə olmalıdır. Rəngbərəng lampalar yandığı zaman küknar ağacının yanında valideynlərin nəzarəti olmadan azyaşlı uşaqları saxlamaq olmaz. Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yanar materiallara yapışdırmaq yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir.

Uşaq bağçalarının və mədəniyyət ocaqlarının rəhbərləri bilməlidirlər ki, küknar ağacları qurulan otaqlardan xaricə iki sərbəst çıxış yolu olmalıdır. Həmin çıxışların qapıları mütləq çıxış istiqamətinə açılmalıdır. Çıxış qapılarının qarşısına kənar əşyalar yığılmamalıdır.

Yeni il tədbirləri və şənlikləri keçirilən yerlərdə yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi məqsədilə həmin yerlər ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir. Şənliklər keçirilən yerlərdə yanğın təhlükəsizliyi qaydalarının yerinə yetirilməsinə nəzarət üçün cavabdeh şəxslər təyin olunmalı və şənliklərin keçirilməsi nəzərdə tutulmuş yerlərdə yanğın təhlükəsizliyinə həvalə edilmiş cavabdeh şəxslər şənlik başlamazdan əvvəl otaqları diqqətlə yoxlamalı, onun yanğına qarşı təhlükəsizliyinin tam təmin olunmasına əmin olmalıdırlar. Bayram şənliklərinin keçirilməsi nəzərdə tutulan zallarda və otaqlarda siqaret çəkmək, zalın keçidlərinə stul qoymaq, köçürmə-çıxış qapılarını qıfılla bağlamaq və otağa təyin olunmuş normadan artıq adam yerləşdirmək qadağandır. Yaşayış evlərində küknar ağacı soba və başqa qızdırıcı cihazlardan təhlükəsiz məsafədə, möhkəm özül üzərində, bəzək işıqlarının quraşdırılması isə yanğın təhlükəsizliyi qaydalarının tələblərinə riayət etməklə quraşdırılmalıdır.

***Qeyd olunanlarla bağlı vətəndaşlarımız bir daha diqqətli olmalı, təhlükəsizlik məsələlərində fəal iştirak etməli və belə hallarla üzləşdikdə dərhal Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin “112” qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin “101” xidmətinə məlumat verməlidirlər.***

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

***Allah rəhmət eləsin***

Naxçıvan Dövlət Universitetinin Roman-german dilləri kafedrasının əməkdaşları kafedranın əməkdaşı Mahirə Rüstəmovaya, bibisi

**ADİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 3940. Sifariş № 1171**